GS1 Azerbaijan

GS1 Rəqəmsal Link



GS1 Rəqəmsal Link məhsulun identifikasiyasını ənənəvi ştrixkodlarla müqayisədə daha müasir və funksional edir.



GS1 Rəqəmsal Link nədir?

GS1 Rəqəmsal Link məhsulun GTIN identifikatorunu internet üzərində yerləşən rəqəmsal məlumatlarla əlaqələndirən beynəlxalq GS1 standartıdır.

Ənənəvi ştrixkod yalnız məhsulun identifikasiyasını təmin etdiyi halda, GS1 Rəqəmsal Link eyni zamanda istehlakçıları məhsul haqqında aktual və dinamik məlumatlara yönləndirir.

Bir QR kod öz ehtiyaclarınıza uyğun fərqli məlumat əldə etməyə imkan verir.

GS1 Rəqəmsal Link necə işləyir?



GTIN	QR kod	URL	Məlumat	Statistika
Məhsulun ştrixkod nömrəsi	GS1 Digital Link	GS1 Digital Link URL ünvanı	İstehlakçıya uyğun məlumat	Skan sayı, vaxt və məkan

İstehsalçılar üçün üstünlüklər:

- Məhsul məlumatlarının mərkəzləşdirilmiş idarə olunması
- Qablaşdırmanı dəyişmədən istənilən vaxt məlumatların yenilənməsi
- Qablaşdırma üzərində yerə qənaət
- İstehlakçılara aktual məlumat təqdim etmək imkanı
- Məhsulun harada və neçə dəfə skan edildiyi barədə məlumat

İstehlakçılar üçün ətraflı məlumat:

- Tərkib və allergenlər
- Qida dəyərləri
- İstifadə qaydaları
- Sertifikatlar
- Mənşə ölkəsi
- Marketinq kampaniyaları
- Rəsmi internet səhifəsi və sosial media
- Təlimat videoları
- Məlumatları istənilən dilə tərcümə etmə
- Təkrar emal məlumatları

GS1 Rəqəmsal Link

- İstehlakçı ilə birbaşa əlaqə yaradır
- Daha zəngin məhsul məlumatı verir
- GS1 standartlarına tam uyğundur
- Gələcəyin 2D barkod həllidir

Rəqəmsal Link necə əldə edilir?

Bunun üçün www.gs1az.org saytında yerləşən Şəxsi Kabinetinizə daxil olmaq lazımdır.
Daha sonra:



Şəxsi Kabinetə daxil olub “DL qeydiyyatı” düyməsinə klik edirsiniz.
Lazım olan link sayını qeyd edib ödənişi etdikdən sonra sistem DL müraciəti üçün keçidləri dərhal aktivləşdirir.

Məhsulun əsas identifikasiya məlumatları (adı, brendi və s.) birbaşa rəsmi GTIN bazasından avtomatik olaraq sistemə inteqrasiya olunur.

Daxil edilmiş bütün məlumatları istənilən vaxt redaktə edə, dəyişdirə və ya tamamilə yeniləyə bilərsiniz.

İstehlakçılar üçün vacib olan digər əlavə məlumatları (tərkibi, komponentləri,xüsusiyyətləri) sistemə əllə daxil edirsiniz.